# HƏYATIN NAĞIL NAXIŞLARI

Bu yazıda yazıçı Fatma Həsənqızının “Acılı-şirinli günlər” sənədli romanından “İkiqat sevinc” hekayəti haqqında təəssüratımı oxucularla bölüşmək niyyətindəyəm. Çünki, bu hissədə insan iradəsinin nəyə qadir olduğundan danışılır, ancaq nağıl şirinliyi ilə danışılır. Həyatın nağıl naxışlarının sözdə təzahürünü görmək hər kəs üçün maraqlı olardı.

İnsanın daxili-mənəvi mühitində böyük ehtiyat enerjisi var. Ayrı-ayrı vaxtlarda həyati zərurət kimi tələbat yaranırsa, onda həmin ehtiyat enerjisi dövriyyəyə daxil olur. Nəsibə ana kimi bir qadının gücündən çox-çox ağır işləri görməsi, ağlasığmaz çətinlikləri öhd eləməsi yalnız ehtiyat enerjinin psixoloji gərginlik zamanı dövriyyəyə buraxılması ilə izah oluna bilər. 4 uşağı saxlamaq, həyət-bacanı təndürüst idarə etmək, elə öz həyətindəcə tərəvəz yetişdirmək, bostan becərmək, hələ üstəlik kolxoz işində səhərdən-axşamacan çalışmaq... bütün bunlar həqiqətən bir qadının fiziki imkanlarından çox-çox artıqdır.

Bütün çətinliklərə baxmayaraq, Nəsibə analıq borcunu ləyaqətlə yerinə yetirir, uşaqların sağlam böyüməsi üçün mümkün ola biləcək nə varsa hamısını ələ gətirə bilirdi.

Bütün bu işlərdə onu ruhdan düşməyə qoymayan xüsusi bir amil vardı, bu da Nəsibə ananın ərinə sədaqəti idi. O heç vaxt ümidini kəsmirdi, bilirdi ki, nə vaxtsa dava qurtaracaq və onun əri evinə, balalarının yanına qayıdacaq. Nəsibə ananın gələcəyə olan inamı onu sarsılmağa qoymurdu və elə bu inamı ilə də qüvvəsini səfərbər edə bilirdi. Onsuz da müharibə insanların təbiətinə xeyli təsir etmişdi. İnsanlar bir-birinə hörmət-izzətlə yanaşır, biri digərinin qayğısını çəkməyi özünə borc bilirdi. 30-cu illərin repressiya problemləri arxada qalmışdı. Sanki, müharibə o dövrün acılıqlarını arxa plana keçirmişdi. Axı elə bir ailə yox idi ki, müharibə onun qapısını döyməsin. Hansısa bir adamı tapa bilməzdin ki, o, müharibə yarası almamış olsun. Beləliklə, əsgər ailəsi olan Nəsibə anaya və onun övladlarına az-çox hökümət qayğısı da var idi. Bu qayğı isə ondan ibarət idi ki, onlara dəyib-dolaşan olmurdu.

Nəsibə yaxşı bilirdi ki, müharibə qurtaranda sağ qalanlar ailəyə qayıdacaq, insanlar sevinəcəklər. O istəyirdi ki, əri Muğdat gələndə övladlarını sağ-salamat, xaraba qalmış evini abad görsün. Onun üçün dünyanın ən böyük mükafatı o idi ki, əri Muğdat evə qayıdanda Nəsibənin qüruru, gücü, qüdrəti ilə öyünsün.

Biz həyatın çətinliklərinə qarşı çarpışan insanların təbiətində yaranmış xüsusiyyətlər haqqında çox danışmışıq.

Çətinliklər iradəcə zəif insanları daxilən əzir, hətta bəzən belələrini insani keyfiyyətlərdən də məhrum edir. Təbiətində gücsüzlüyü, zəifliyi olan insan, nisbətən, yaşamaq üçün asan yol seçir, başqalarına pislik etməklə faydalanmaq istəyir, bəzən əliəyriliyə qurşanır. Təbiidir ki, belələrinin axırı olmur. Beləri zaman keçdikcə cəmiyyətin çıxdaşına çevrilir, bunun üçün ən yaxşı nümunə elə Kəlbi obrazıdır.

“Kəlbi” sözünün mənası it deməkdir. Əsər sənədli olduğundan həyati faktlara əsaslandığından düşünmək olar ki, həqiqətən bu adda bir insan olub, ancaq ona insan yox, insan cildində quduz it kimi baxmalıyıq. Bir sözlə Kəlbinin taleyi mənəviyyatı zəhərlənmiş, korlanmış olan insancığazın taleyidir.

Həyat özü çox şeyi nizamlayır. Kəlbi kimilərin mühitində sağ qalmaq, şəxsiyyətini hifz etmək çətindir, elə ona görə də arxasında rejimin dayandığı Kəlbilərin mühitində Muğdat bir vaxtlar öz ailəsini götürüb uzaqlaşmışdı.

Nəsibə ana yenidən kəndə qayıdanda kifayət qədər həyat hazırlığı vardı, o, zəhmətdən qorxmurdu. Şəxsiyyəti ilə öz ucalığını təmin etməyi bacarırdı. Demək, çətinliklərə qarşı dözüm gücü olan insanı qarşısına çıxan çətinliklər daha da mətinləşdirir, inamını heç nə qıra bilmir, ümidini hifz etməyə qadir olur.

Nəsibə ananın tale yolu kəskin sınaqlardan keçir və öz zəhməti ilə dövranın hər cür sınaqlarına tab gətirir, əyilmir, sınmır, kimsəyə möhtac olmur. Simsarlarının köməyi ilə həyat cəngəllikləri arasından özünə, balalarına yaşayış yolu aça bilir.

Yazıçı Fatma Həsənqızı “Acılı-şirinli günlər” romanında məhz çətinliklərin polad kimi möhkəmləndirdiyi, qüdrət verdiyi, əyilməzlik, bəxş etdiyi ana obrazını Nəsibənin simasında təqdim edir. Təsvirlər bu ananın nəyə qadir olduğunu kifayət qədər aydınlığı ilə təqdim edir: “Beşinci il idi ki, müharibə gedirdi. Yaxşı adamların köməyi ilə Nəsibənin komasının yanında qamış və palçıqdan hörülmüş, üstü örtülmüş, iki otaqdan ibarət ev də tikilmişdi. Artıq həyətyanı sahədən min bir əziyyətlə əldə etdiyi ərzağı yerləşdirməyə geniş yeri var idi. Bu evlərin tikilməsində kolxozun tikinti ustaları, dayısı Əbülfəz, Nəsibə özü, Xudadat, Ağadat da zəhmət çəkmişdilər. Ancaq ən böyük ağırlıq Nəsibənin üzərinə düşmüşdü. Kolxoz işinə getmək, ev işlərinə əl yetirmək, gili tapdalayıb palçıq hazırlamaq, xörək bişirmək və ustalara çay-çörək vermək gənc qadını tamam əldən salsa da, yorğunluğunu büruzə vermir, əli çatan işlərə kömək etməyə də özündə güc tapırdı. Atalar demişkən, niyyətin hara, mənzilin də ora. Nəsibə istədiyini az da olsa həyata keçirmişdi. İndi onun evinin çardağında balaları üçün müəyyən qədər quru meyvədən tutmuş ta müxtəlif ərzaqlara qədər xeyli ehtiyat azuqə var idi. Həm də ki, Nəsibə israfçılıq etmir, hər şeyi, xüsusi ilə də ərzağı qənaətlə işlədirdi.

O, israfçılıq etməməyi, qənaətçiliyi uşaqlarına da öyrətmişdi”. Demək, Nəsibə ana təkcə zəhməti ilə fərqlənmir, o, həm də övladları üçün mükəmməl ana qucağı məktəbinin aprıcı simasıdır. O, özünün timsalında halal yaşamağın, ləyaqətlə yaşamağın yolunu öz övladlarına da təlqin edir.

Ana bəlkə də, sadəcə intuisiyası, ləyaqəti ilə övladlarında doğru-düzgün yaşamağın necə yüksək bir keyfiyyət olduğunu başa salırdı. Bunun üçün onun özünün xarakteri, xasiyyəti, həyat tərzi, seçdiyi yol bəs eləyirdi. Elə bu səbəbdən də böyük oğlu Xudadat 15 yaşına çatanda artıq ailənin yükünü çəkmək iqtidarında idi. Mərd, ləyaqətli oğul kimi böyüyürdü, sanki, qoçaqlığı ilə ata-babasından qalan yolun əsl davamçısı idi: “Xudadatın artıq on beş yaşı vardı. Şəddat isə beş yaşındaydı. O, yaşına uyğun olaraq bəzi işlərdə həvəslə anasına, qardaşına kömək edirdi”. Göründüyü kimi 5 yaşında uşaq da gözünü açıb gördüyü mühitdə artıq nəyə qadir olduğunu göstərmək istəyirdi. Balaca Şəddat gələcək böyük həyatının ən yaxşı səhifələrini yazanda başa düşdü ki, onun uğurlarının əsasında uşaqlıq dövrünün həyatı, yəni, ana məktəbi, üstün tərbiyə yolu bünövrə olmuşdur. Belə mühitdə böyüyən uşaq gələcəkdə cəmiyyət üçün faydalı olmağı özünə əsas amal bilir.

Axır ki, gözlənilən gün gəlib çatır, insanlar sevinirlər. Faşizmin yuvası dağıdılmışdı, böyük qurbanlar bahasına olsa da, ilanın başı öz yuvasında əzilmişdi. Bu çox böyük qələbə idi, faşizmə qarşı mübarizədə dünyanın birləşməsi təsadüfi deyildi. Çünki, faşizm bəşəriyyəti hədələyir, sağlam düşüncəni məhv etmək istəyirdi. Şübhəsiz, bu qələbədə hər bir əsgərin payı vardı, o cümlədən, yeddi yüz min nəfər gənci müharibəyə göndərmiş Azərbaycanın da payı əvəzsiz idi. Azərbaycan böyük canlı qüvvə vermişdi. Cəbhəyə gedənlərin yarısı müharibədən qayıtmadı, hələ üstəlik, Sovet İttifaqının müharibəyə sərf etdiyi yanacağın 80 faizini də Bakı verirdi. Arxa cəbhənin ərzaq, pal-paltar sarıdan köməyi də danılmazdı. Demək, qələbədə nə qədər Muğdatın payı vardısa, bir o qədər də Nəsibə ananın payı vardı. Əgər belə demək mümkünsə, bu savaşdan Nəsibə ananın övladları da kənarda deyildi.

Muğdatın müharibədən qayıtma əhvalatı sonralar dildən-dilə düşən əsl nağıla bənzəyirdi: “...Müharibə qələbə ilə sona çatdı. Nəsibəgilin də sevincinin həddi-hüdudu yox idi. bununla yanaşı, cəbhədən yaxınlarını saatbasaat gözləyən, gecələri səksəkəli yatanlar kimi bu kiçik ailənin də nigarançılığı artmışdı. Bütün günü qulaqları səsdə, gözləri yolda qalmışdı. Həmin axşam da Nəsibə adəti üzrə evdəki tüfəngi yatağının baş tərəfinə qoyub yatağına uzandı. Elə təzəcə yuxuya getmişdilər ki, həyətdə it hürdü. Nəsibə hövlnak oyanıb yatağın içində oturdu. Tüfəngi əlinə alıb diqqətlə bayırdan eşidilən səsə qulaq asmağa başladı. İt yenidən hürdü. Bu dəfə xeyli müddət sakitləşmək bilmədi. Həyətə kiminsə gəldiyinə daha şübhə qalmadı. Uşaqlar da yuxudan oyandılar”. Həyəcanlı məqamdır. Ana balaları ilə gecə qaranlığında həyəcanlı anlar yaşayır. Nə bilmək olar, bəlkə gündüzdən kimsə onların inəyini oğurlamağı qərara alıb, nə bilmək olar, daha hansı niyyəti var. Nəsibə ana ehtiyat saxladığı tüfəngi əlinə götürür, deyəsən, həyətdə qaraltı var: “Xudadat anasının əlində tüfəngi görcək həyəcanla soruşdu:

-Ana, nə olub?

-Oğul, deyəsən, həyət qapısında kimsə var.

Xudadat cəld yerindən qalxıb tələsik geyindi. Əvvəlcə pəncərəyə yaxınlaşıb həyətə göz gəzdirdi. Lakin gecə qaranlığında şübhəli bir şey gözünə dəymədi. Ancaq itin hələ də susmaması, yəqin ki, səbəbsiz deyildi. Buna görə də tüfəngi anasından alıb eşiyə çıxdı. Nəsibə də onu tək buraxmayıb ardınca getdi. Xudadat kişi səsi ilə soruşdu:

-Ey, kimsən orda?

-A bala, sən kimsən?

-Mən, evin kişisi Xudadat.

-Atan sənə qurban olsun, Xudadat. Elə bildim evimdə yad kişi var. Mənəm, atan Muğdat.

-İlahi, şükür sənə - deyə Nəsibə özünü irəli atdı”. Bu həyəcanlı anların sevincə çevrilməsi, ananın, uşaqların yaşadığı duyğular heç nə ilə əvəz olunan deyil. Beləcə, bir ailənin həsrətinə son qoyulur. Bu həyəcanların, bu duyğulanmaların arasında Muğdatın yaşadığı hisslərin ifadəsi daha qeyriadidir. Gördüyü mənzərə onun qəlbini dağa döndərir. O, xatunu Nəsibə ananın mərdliyi, sədaqəti qarşısında heyrətlənir. Beləliklə, bir ailəni inam, ümid yenidən bir yerə yığır. Onlar həyatın acılıqlarına, dəhşətlərinə qalib gəlmişdilər. Bir-birinə sədaqətləri, bir-birinə tükənməz inamları ilə qalib gəlmişdilər çətinliklərə.

Muğdat təbiət etibarı ilə kimsəyə dəyib-dolaşan deyildi, amma kimsəyə əyilən də deyildi. Elə əvvəldən onun təbiətində qorxmazlıq, igidlik, özünü hər an göstərə bilirdi. İndi də müharibədən qəhrəman kimi qayıtmışdı. Sinəsi orden, medalla dolu olan Muğdatı kənddə hörmətlə qarşılasalar da bir çox məsələlər onu düşündürürdü. Yazıçı bu məqamı da real cizgilərlə verib. Oxucu da bir ailənin sevincinə öz hissləri ilə qovuşur: “ ...Muğdat bir həftə idi ki, doğma yurduna qayıtmışdı. Hamı Nəsibəyə gözaydınlığı verirdi. Qonum-qonşular, tanış-bilişlər Muğdatın kolxoza girib işləməsini məsləhət görürdülər. Bu məsləhət və təkliflər Nəsibənin ürəyindən idi. Muğdat da doğulub böyüdüyü doğma kəndində yaşamaq, əlini-qolunu çırmayıb ata-baba adəti ilə işləmək istəyirdi. Ancaq bir qərara gələ bilmirdi. Onu qınamaq da olmazdı. Axı, keçmişdə ona qarşı olan münasibətləri indi hiss etməsə də, ürəyində, yaddaşında keçmişin vahiməsi qalmışdı”. İndi ötmüş zaman haqqında düşünəndə biz də Muğdatı başa düşməyə çalışmalıyıq. Doğrudan da, qınına çəkilmiş olanlar qınından çıxmış ola bilərdi və onlar özlərinin şər xislətlərini yenə göstərmək istəyərdilər. Ona görə də Muğdat bundan sonrakı həyat yolunu müəyyən etməli idi: “Bir gün o, ailəsini başına toplayıb dedi: - Mən bu kənddə qala bilmərəm. Qorxuram ki, düşmən yenə baş qaldıra. Min bir böhtan atıb məni tutdura. Təzədən təmiz adımı ləkələmək istəmirəm. Qayıdıram Bakıdakı evimizə. İşə düzələn kimi gəlib sizi də apararam”. Beləliklə, Muğdat taleyini yenidən Bakıya bağlamaq qərarına gəlir, bununla o, artıq böyüməkdə olan oğlanlarını da şər xislətli insanların nəzərindən yayındıra biləcəkdi. Ancaq Nəsibə üçün çətin idi. O, min bir əziyyətlə qurub yaratdığı evindən, həyətindən ayrılmalı idi, ancaq heç bir etiraz eləmədi: “Uşaqlar Bakıya getməyi çoxdan arzulayırdılar. Lakin Nəsibə, bir qadının gücü daxilində olmayan əzab-əziyyətlə qurduğu ocağından ayrılmaq istəmirdi. Ancaq nə deyə bilərdi. Əsas söz evin böyüyünün idi”.Beləliklə, aydın səhərə doğru öz halal zəhmətləri ilə halallıq yolu tutmuş ailənin yeni həyatı başlanırdı.

İnsanlar üçün həyatın hər anı dəyərlidir, ancaq ləyaqətlə yaşanmış ömür yolu nə qədər çətinliklərlə müşayiət olunsa da o daha üstündür, daha gözlərdir.

Şəddat Cəfərovun həyatının ana qucağı məktəbi ona bütün həyatı boyu unutmayacağı dərslər vermişdi.

... Bu da həyatın ecazkar nağıl naxışları. Bu naxışlar ruhumuzun, düşüncəmizin çox dəyərli yaddaş mənzərəsini yaradır.

*Ə.R.* Xələfli

*27.05.2021*